# COP29 RADİOSPEKTRİN İDARƏ EDİLMƏSİ PORTALI

COP29
Baku
Azerbaijan



# MÜNDƏRİCAT


**1. Giriş** 3

**2. İstifadəçi hesabı** 4

2.1 Qeydiyyat 5

2.2 Portala giriş/Portaldan çıxış 9

2.3 Unudulmuş şifrənin bərpası 11

**3. Tənzimləmələr** 12

3.1 Şifrənin yenilənməsi və bildiriş dili 14

**4. Yeni radiospektr müraciətləri** 15

4.1 İdarəetmə paneli 19

4.2 Əməliyyat avadanlıqları üçün müraciətlər 21

4.3 DSNG üçün müraciətlər 23

**Əlaqə** 25


COP29
Baku
Azerbaijan

# 1. GİRİŞ

Bütün akkreditə olunmuş nümayəndələr **COP29 Radiospektrin idarə edilməsi portalı** vasitəsilə DSNG və əməliyyat avadanlıqlarının istifadəsi ilə bağlı qaydaları ehtiva edən **Texniki təlimata** uyğun olaraq radiospektr müraciətlərini təqdim edə bilərlər.

Radiospektrin ayrılması ilə bağlı müraciət etməzdən əvvəl COP29 üçün akkreditasiyadan keçmək tələb olunur.



# 2. İSTİFADƏÇİ HESABI



## 2.1 Qeydiyyat




Hesab yaratmaq üçün COP29 Radiospektrin idarə edilməsi portalına keçid edin və **"Qeydiyyat"** düyməsini sıxın.

# 2.1 Qeydiyyat




Tələb olunan xanalara müvafiq məlumatları daxil etdikdən sonra **“Qeydiyyatdan keçin”** düyməsini sıxın.

**Qeyd:** Qeydiyyatdan keçdiyiniz zaman seçdiyiniz dil e-poçt bildirişləri üçün standart dil olaraq təyin olunacaq.

**Qeyd:** Zəhmət olmasa, aktiv e-poçt ünvanınızı və mobil nömrənizi qeyd edin. E-poçt ünvanı şifrənin bərpası və portal bildirişləri üçün istifadə olunacaq. Zəruri hallarda isə qeyd olunan mobil nömrə ilə əlaqə saxlanıla bilər.

# 2.1 Qeydiyyat

## COP29 Radiospektrin idarə edilməsi portalı

Hörmətli Humay Həsənli,

Qeydiyyatdan keçdiyiniz və COP29-a maraq göstərdiyiniz üçün təşəkkür edirik.

Hesab yaradılması ilə bağlı müraciətiniz qəbul edilib və hazırda məlumatlarınızın doğruluğu tərəfimizdən yoxlanılır. Yoxlama prosesi başa çatdıqdan sonra sizə e-poçt vasitəsilə bildiriş göndəriləcək.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)




Qeydiyyat tamamlandıqdan sonra sizə hesabınızın hazırda doğrulama prosesində olduğuna dair e-məktub göndəriləcək.

**Qeyd:** Əgər belə bir məktub e-poçtunuza daxil olmayıbsa, "junk/spam" qovluğunu yoxlamağınız xahiş olunur.

Doğrulama prosesi zamanı sistemə daxil olmağa cəhd etsəniz, hesabınızın hazırki statusu barədə məlumat xarakterli bildiriş görəcəksiniz.

Proses tamamlandıqdan sonra sizə e-poçt vasitəsilə hesabınızın doğrulama prosesindən keçməsi və ya keçməməsi barədə məlumat göndəriləcək.

## 2.1 Qeydiyyat

**COP29 Radiospektrin idarə edilməsi portalı**

Hörmətli Humay Həsənli,

Qeydiyyatdan keçdiyiniz üçün sizə təşəkkür edirik!

**Təəssüflə bildiririk ki, şəxsi hesabınız doğrulama prosesindən keçməmişdir.**

**İmtina səbəbi:**

Zəhmət olmasa,ad, soyad və şirkət adını düzgün daxil edin.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

Hesabınız doğrulama prosesindən keçmədiyi halda, e-məktubda qeyd edilən imtina səbəbini nəzərdən keçirin və təlimatlara uyğun olaraq növbəti addımları izləyin.

**COP29 Radiospektrin idarə edilməsi portalı**

Hörmətli Humay Həsənli,

Qeydiyyatdan keçdiyiniz üçün təşəkkür edirik!

**Məmnuniyyətlə bildiririk ki, hesabınız doğrulama prosesindən uğurla keçmişdir.** Giriş səhifəsinə keçid edərək şəxsi hesabınıza daxil ola bilərsiniz.

Zəhmət olmasa, portalın istifadəsi və spektr müraciətlərinin təqdim edilməsi ilə bağlı ətraflı məlumat üçün portaldakı **İstifadəçi təlimatına** və **Texniki təlimata** istinad edin.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

Hesabınız doğrulama prosesindən keçdiyi halda, istifadəçi adı və şifrənizdən istifadə edərək sistemə daxil olun.

## 2.2 Portala giriş/Portaldan çıxış




Sistemə giriş etmək üçün COP29 Radiospektrin idarə edilməsi portalına keçid edərək istifadəçi adı və şifrənizi daxil etdikdən sonra **"Giriş"** düyməsini sıxın.

# 2.2 Portala giriş/Portaldan çıxış




Portaldan çıxış etmək üçün iki seçim mövcuddur:

- Aşağı sol küncdə **"Çıxış"** düyməsini sıxın;
- Yuxarı sağ küncdə **"Profil"** düyməsini sıxın və daha sonra açılan menyuda **"Çıxış"** düyməsini sıxın.

## 2.3 Unudulmuş şifrənin bərpası




Şifrənizi unutduğunuz zaman **"Giriş"** səhifəsində **"Şifrənizi unutmusunuz?"** düyməsini sıxaraq müvafiq təlimat üzrə onu bərpa edin.




Şifrəni bərpa etmək üçün OTP kodunu daxil edin və **"Təsdiq et"** düyməsini sıxın.

# 3. TƏNZİMLƏMƏLƏR



# 3. Tənzimləmələr




Şifrə və dil tənzimləmələri üçün **“Profil”** düyməsini sıxın və açılan menyudan **“Tənzimləmələr”** düyməsini sıxın.

# 3.1 Şifrənin yenilənməsi və bildiriş dili




Şifrənizi yeniləmək üçün **"Şifrəni yenilə"** bölməsinə keçərək cari və yeni şifrələrinizi daxil edin və **"Yenilə"** düyməsini sıxın.

**Qeyd:** Şifrə ən azı 8 simvoldan, eləcə də böyük və kiçik hərflər, rəqəmlər və xüsusi işarələrdən ibarət olmalıdır.

Bildiriş dilini seçmək üçün **"Bildiriş dili"** bölməsinə keçid edərək, açılan siyahıdan seçim edin və **"Yadda saxla"** düyməsini sıxın.

**Qeyd:** Bildirişlər dedikdə portaldan sizə göndərilən e-məktublar nəzərdə tutulur. Qeydiyyatdan keçdiyiniz zaman seçdiyiniz dil e-poçt bildirişləri üçün standart dil olaraq təyin olunacaq.

# 4. YENİ RADİOSPEKTR MÜRACİƏTLƏRİ



# 4. Yeni radiospektr müraciətləri




Radiospektr müraciətini yaratmaq üçün iki seçim mövcuddur:

- **“Əsas səhifə”**-yə keçid edərək **“Əməliyyat avadanlıqları üçün yeni müraciət”** və ya **“DSNG üçün yeni müraciət”** düyməsini sıxa bilərsiniz.

# 4. Yeni radiospektr müraciətləri




**“Əməliyyat avadanlıqları üçün müraciətlər”** səhifəsinə keçərək **“Yeni müraciət yarat”** düyməsini sıxa bilərsiniz.

# 4. Yeni radiospektr müraciətləri




**“DSNG üçün müraciətlər”** səhifəsinə keçərək **“Yeni müraciət yarat”** düyməsini sıxa bilərsiniz.

# 4.1 İdarəetmə paneli




**“Əməliyyat avadanlıqları üçün müraciətlər”** səhifəsində aşağıda qeyd olunan funksiyalardan istifadə edə bilərsiniz.

1. Müraciətlərin statusunu görmək üçün yuxarı hissədəki xanalara və ya **“Status”** sütununa nəzər yetirin.
2. Müraciətlərin hesabatını yükləmək üçün **“Excel faylını yükləyin”** düyməsini sıxın.
3. Sütunlar üzrə ümumi axtarış etmək üçün **“Axtar”** xanasına əsas mətni daxil edin, çeşidləmək üçün cədvəldəki ilk sətirdən, filtr etmək üçün isə ikinci sətirdəki **“Seçin”** xanasından istifadə edin.
4. **“Əməliyyatlar”** sütununa keçin və müvafiq olaraq müraciət üzrə məlumatlara baxmaq üçün **“Ətraflı”**, müraciəti ləğv etmək üçün isə **“Ləğv et”** düyməsini sıxın.
   **Qeyd:** Müraciətinizi həm **“Gözləmədədir”**, həm də **“İKTA tərəfindən təsdiqlənib”** statuslarında olarkən ləğv edə bilərsiniz. Nəzərə alın ki, ləğv olunan müraciəti bərpa etmək mümkün deyil.
5. Bütün təsdiq edilmiş müraciətləri görmək üçün **“İdarəetmə paneli”**-nin yuxarı sağ küncündəki QR kodu skan edin.
   **Qeyd:** QR kod yalnız müraciət təsdiq edildikdən sonra görünəcək.
6. Etiketləmə statusunu görmək üçün **“Etiketləmə statusu”** sütununa  nəzər yetirin.

# 4.1 İdarəetmə paneli




**“DSNG üçün müraciətlər”** səhifəsində aşağıda qeyd olunan funksiyalardan istifadə edə bilərsiniz.

1. Müraciətlərin statusunu görmək üçün yuxarı hissədəki xanalara və ya **“Status”** sütununa nəzər yetirin.
2. Müraciətlərin hesabatını yükləmək üçün **“Excel faylını yükləyin”** düyməsini sıxın.
3. Sütunlar üzrə ümumi axtarış etmək üçün **“Axtar”** xanasına əsas mətni daxil edin, çeşidləmək üçün cədvəldəki ilk sətirdən, filtr etmək üçün isə ikinci sətirdəki **“Seçin”** xanasından istifadə edin.
4. **“Əməliyyatlar”** sütununa keçin və müvafiq olaraq müraciət üzrə məlumatlara baxmaq üçün **“Ətraflı”**, müraciəti ləğv etmək üçün isə **“Ləğv et”** düyməsini sıxın.
   **Qeyd:** Müraciətinizi həm **“Gözləmədədir”**, həm də **“IKTA tərəfindən təsdiqlənib”** statuslarında olarkən ləğv edə bilərsiniz. Nəzərə alın ki, ləğv olunan müraciəti bərpa etmək mümkün deyil.
5. Bütün təsdiq edilmiş müraciətləri görmək üçün **“İdarəetmə paneli”**-nin yuxarı sağ küncündəki QR kodu skan edin.
   **Qeyd:** QR kod yalnız müraciət təsdiq edildikdən sonra görünəcək.
6. Etiketləmə statusunu görmək üçün **“Etiketləmə statusu”** sütununa  nəzər yetirin.

# 4.2 Əməliyyat avadanlıqları üçün müraciətlər




**“Əməliyyat avadanlıqları üçün radiospektr müraciət forması”** səhifəsinə keçid etdikdən sonra tələb olunan məlumatları daxil edin.

- Ətraflı məlumat üçün müvafiq xanaların yanında yerləşən ⓘ işarəsinə klik edin.
- **“Əlavə məlumat”** xanasında zəruri hesab etdiyiniz digər məlumatları təqdim edə bilərsiniz.
- Növbəti avadanlıqla bağlı radiospektr müraciəti yaratmaq üçün **“Əlavə edin”** düyməsini sıxın.

Müraciət formasının sonunda təqdim olunan məlumatları diqqətlə oxuyun və hər iki təsdiq xanasını seçin.

Təqdim etdiyiniz bütün məlumatların düzgün olduğuna əmin olun və **“Müraciəti göndər”** düyməsini sıxın.

Müraciətinizi göndərdikdən sonra **“İdarəetmə paneli”**-nə keçid edərək müraciətinizin nömrəsini, təqdim olunma tarixini, saatını və statusunu **(“Gözləmədədir”)** görə bilərsiniz.

## 4.2 Əməliyyat avadanlıqları üçün müraciətlər

**Müraciətiniz təsdiq edildiyi halda ünvanlanan e-məktub:**

**COP29 Radiospektrin idarə edilməsi portalı**

Hörmətli Humay Həsənli,

**Məmnuniyyətlə bildiririk ki, Əməliyyat Avadanlığı ilə bağlı 330 saylı müraciətiniz təsdiq edilmişdir.**

**Bu avadanlıq üçün təyin olunan tezlik: 520 Tx (MHz) - 526 Rx (MHz)**

Müraciətinizin təsdiq olunduğunu əks etdirən QR kod idarəetmə panelinin sağ yuxarı hissəsində yerləşdirilmişdir. **Zəhmət olmasa, konfrans məkanına gəldiyiniz zaman QR kodu elektron cihaz vasitəsilə təqdim edin.**

Qeyd olunan QR kod konfrans məkanına maneəsiz girişi təmin edəcək.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

**Müraciətiniz təsdiq edilmədiyi halda ünvanlanan e-məktub:**

**COP29 Radiospektrin idarə edilməsi portalı**

Hörmətli Humay Həsənli,

**Təəssüflə bildiririk ki, Əməliyyat Avadanlığı ilə bağlı 331 saylı müraciətiniz təsdiq edilmədi.**

**İmtina səbəbi:**

Zəhmət olmasa, antenanın hündürlüyünü düzgün daxil edin.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

Müraciətiniz nəzərdən keçirildikdən sonra sizə onun təsdiq edilib və ya edilməməsi barədə e-məktub göndəriləcək.

Konfransın keçiriləcəyi məkana gəldiyiniz zaman sizdən əməliyyat avadanlığınızın etiketlənməsi üçün **Radiospektrlərin Test və Etiketlənmə Masasına** yaxınlaşmağınız tələb olunur.

✓ Əməliyyat avadanlığınız sınaq mərhələsindən uğurla keçərsə, müvafiq qaydada etiketlənəcək. Bu etiketlər təhlükəsizlik yoxlamaları zamanı əməliyyat avadanlığının konfrans məkanında istifadə olunmasına icazə verildiyini təsdiq edəcək. Heç bir halda etiketi çıxarmaq və ya başqa avadanlığa təkrar yapışdırmaq olmaz - bu, **qəti qadağandır.** Hər hansı problem yaranarsa, zəhmət olmasa, **Radiospektrlərin Test və Etiketlənmə Masasına** və ya radiospektr komandasının nümayəndəsinə müraciət edin.

✗ Konfrans məkanında etiketlənməmiş əməliyyat avadanlıqlarından istifadə olunmasına icazə verilməyəcək.

**Qeyd:** Texniki təlimatda qeyd olunan qaydalara riayət etmədiyiniz halda, əməliyyat avadanlığınız müsadirə oluna bilər.

# 4.3 DSNG üçün müraciətlər



DSNG üçün radiospektr müraciət forması

Ad - Soyad: Humay Həsənli
E-poçt ünvanı: mediaservices@cop29.az
Şirkət adı: COP29
Mobil nömrə: 994000000000

1

* Başlama tarixi: gg-aa-iiii
* Bitmə tarixi: gg-aa-iiii
* İstifadə müddəti (gün)
* DSNG-nin növü: DSNG-nin növünü seçin
* Müvafiq yayımçının kodu
* Müvafiq yayımçının daimi təyinat nöqtəsi
* Peyk şəbəkəsi / Peykin adı
* Peykin orbital mövqeyi
* Kodlayıcı avadanlığın istehsalçısı
* Kodlayıcı avadanlığın modeli
* Antenanın istehsalçısı
* Antenanın modeli
* Antenanın gücləndirmə əmsalı [dBi]
* Antenanın tezliyi Tx (MHz)
* Antenanın tezliyi Rx (MHz)
* Kodlayıcı avadanlığın tezliyi Tx [MHz]
* Kodlayıcı avadanlığın tezliyi Rx [MHz]

Əlavə məlumat

Əlavə edin

* Bu müraciət formasında təqdim etdiyim məlumatların müvafiq qurumlarla paylaşılmasına razılıq verirəm.
* Bu müraciət formasında təqdim etdiyim məlumatların tam və dəqiq olduğunu təsdiq edirəm. Məlumatların düzgünlüyünə və yarana biləcək bütün nəticələrə görə tam məsuliyyət daşıyıram.

Müraciəti göndər

DSNG üçün radiospektr müraciəti etməzdən öncə, müraciətin detalları **Beynəlxalq Yayım Mərkəzinin (IBC) meneceri Tim Davis** ilə razılaşdırılmalıdır. Zəhmət olmasa, cənab Tim Davis ilə davis.tim52@gmail.com e-poçt ünvanı vasitəsilə əlaqə saxlayın.

**“DSNG üçün Radiospektr müraciət forması”** səhifəsinə keçid etdikdən sonra tələb olunan məlumatları doldurun.

- Əlavə məlumat üçün müvafiq xanaların yanında yerləşən ⓘ işarəsinə klik edin.
- **“Əlavə məlumat”** xanasında zəruri hesab etdiyiniz digər məlumatları təqdim edə bilərsiniz.
- Növbəti avadanlıqla bağlı radiospektr müraciəti yaratmaq üçün **“Əlavə edin”** düyməsini sıxın.

Müraciət formasının sonunda təqdim olunan məlumatları diqqətlə oxuyun və hər iki təsdiq xanasını seçin.

Təqdim etdiyiniz bütün məlumatların düzgün olduğuna əmin olun və **“Müraciəti göndər”** düyməsini sıxın.

Müraciətinizi təqdim etdikdən sonra **“İdarəetmə paneli”**-nə keçid edərək müraciətinizin nömrəsini, təqdim olunma tarixi, saatını və müraciətinizin statusunu **(“Gözləmədədir”)** görə bilərsiniz.

# 4.3 DSNG üçün müraciətlər

**Müraciətiniz təsdiq edildiyi halda ünvanlanan e-məktub:**

COP29 Radiospektrin idarə edilməsi portalı

Hörmətli Humay Həsənli,

**Məmnuniyyətlə bildiririk ki, DSNG ilə bağlı 172 saylı müraciətiniz təsdiq edilmişdir.**

Müraciətinizin təsdiq olunduğunu əks etdirən QR kod idarəetmə panelinin sağ yuxarı hissəsində yerləşdirilmişdir. **Zəhmət olmasa, konfrans məkanına gəldiyiniz zaman QR kodu elektron cihaz vasitəsilə təqdim edin.** Qeyd olunan QR kod konfrans məkanına maneəsiz girişi təmin edəcək.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

**Müraciətiniz təsdiq edilmədiyi halda ünvanlanan e-məktub:**

COP29 Radiospektrin idarə edilməsi portalı

Hörmətli Humay Həsənli,

**Təəssüflə bildiririk ki, DSNG ilə bağlı 173 saylı müraciətiniz təsdiq edilmədi.**

**İmtina səbəbi:**

Zəhmət olmasa, peykin adını düzgün daxil edin.

Sualınız yaranarsa və ya əlavə köməyə ehtiyacınız olarsa, mediaservices@cop29.az e-poçt ünvanı ilə əlaqə saxlamağınızı xahiş edirik.

Hörmətlə,

İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA)

Müraciətiniz nəzərdən keçirildikdən sonra sizə onun təsdiq edilib və ya edilməməsi barədə e-məktub göndəriləcək.

✓ Konfransın keçiriləcəyi məkana gəldiyiniz zaman DSNG-lər radiospektr komandası tərəfindən dislokasiya yerində etiketlənəcək.

Heç bir halda etiketi çıxarmaq və ya başqa avadanlığa təkrar yapışdırmaq olmaz - bu, **qəti qadağandır.** Hər hansı problem yaranarsa, zəhmət olmasa, **Radiospektrlərin Test və Etiketlənmə Masasına** və ya radiospektr komandasının nümayəndəsinə müraciət edin.

COP29
Baku
Azerbaijan

# ƏLAQƏ

Portalın istifadəsi və ya radiospektr müraciətinin təqdim edilməsi ilə bağlı sualınız yaranarsa, bizimlə e-poçt ünvanı vasitəsilə əlaqə saxlaya bilərsiniz.

mediaservices@cop29.az

COP29
Baku
Azerbaijan